# BULUDXAN XƏLİLOV HAQQINDA GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SÖYLƏDİKLƏRİ

Amma bu gün fəxrlə elə o ustadlarımızın ucaldıqları zirvəni Buludxan kimi alimlərimiz yeni-yeni əsərləri, daha mükəmməl, daha təkmilləşmiş şəkildə fəth edib.

***Afad Qurbanov,***
***akademik***

Çoxaspektli araşdırmalar və professionallıq Buludxan Xəlilovun dilçilik elmindəki fəaliyyətini xarakterizə edir. Bu isə dilçi alimin geniş dünyagörüşə, böyük təcrübəyə və elmi səriştəyə malik olduğunu, zəhmətini və məsuliyyətini göstərir. Bütün bünların sayəsində Buludxan Xəlilovun timsalında Azərbaycan dilçilik elmi bütün əsas sahələri ilə inkişaf etməkdə davam edirə.

***İsa Həbibəyli,***
***akademik***

Mötəbər elmi məclislərdə ciddi söz sahibi olan filologiya elmləri doktoru, professor Buludxan Xəlilov gənc yaşlarından elmi, təfəkkürü, yazdığı qiymətli əsərləri ilə elmi ictimaiyyətdə tanınmış, böyük nüfuz qazanmışdır.

***

O, Müstəqil Azərbaycanımızın dilçilik, ədəbiyyatşünaslıq sahəsinin tanınmış simalarından biri kimi öz dəstixətti, öz yaradıcılıq yolu ilə qənimət alimlərimizin birincilər sırasındadır.

***Almaz Ülvi (Binnətova),***
***filologiya elmləri doktoru***

Görkəmli ziyalı olmaqla bərabər Buludxan müəllimin vətəndaş mövqeyi də təqdirəlayiqdir**.**

***Ədalət Fərəcov,***
***filologiya elmləri doktoru, professor***

Buludxan müəllim haqqında yazanda isə heç vaxt sözün arxasınca düşüb, vaxtımı söz axtarışına sərf etmirəm. Çünki söz özü mənimlə həmsöhbət olmağa, fikirlərimə, düşüncələrimə cani dildən bələdçilik etməyə can atır. Bax budur istedad və şəxsiyyətin vəhdətindən yaranan görkəmli şəxsiyyət ucalığına düşən təbii işıq.

***Cəlal Allahverdiyev,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Buludxan müəllim elmi və pedaqoji fəaliyyətində ahəngdarlığı, tarazlığı qoruya bilir, onlardan birini digərindən üstün tutmur, alimliyi və müəllimliyi bir-birindən ayırmır. Məsələyə yüksək vətəndaşlıq ləyaqəti mövqeyindən yanaşaraq həmin fəaliyyət sahələrinin qoşa qanad olduğunu söyləyir.

***Yusif Yusifov,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Ey Əziz dədənin ən əziz oğlu -
Cavanlıq çağından ulu Buludxan!
Həmişə təzətər, yaşıl duyğulu,
Köksü kəlamlarla dolu Buludxan!

***Oqtay Rza,***
***şair, Əməkdar müəllim***

Görkəmli Azərbaycan dilçisi professor Buludxan Xəlilov sələflərinin elmi mülahizə və fikirlərinə, təlimlərinə həssaslıqla, ehtiramla yanaşmış, onlardan öyrənmiş və özünün dilçilik görüşlərini formalaşdırmışdır.

***

Neçə ki, ana dilimiz yaşayır, dilçiliyimiz inkişafdadır, professor Buludxan Əziz oğlu Xəlilov da yaşayacaq.

***İsmayıl Məmmədli,***
***filologiya elmləri doktoru, professor***

Professor B.Xəlilovun elmi fəaliyyəti çoxşaxəli, geniş və əhatəli idi. Onun 400-dən çox elmi, elmi-publisistik əsəri çap olunmuşdur. Bunlardan əlavə, görkəmli alim 28 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Tək Azərbaycan dilçiliyinin deyil, ümumən türkoloji dilçiliyin ən müasir problemləri onun elmi yaradıcılığının əsasını təşkil edir.

***

Professor B.Xəlilovun elmi fəaliyyətinin mühüm nailiyyətlərindən biri də ana dilimizin müasir problemlərinin araşdırılması və tədrisi ilə bağlıdır. Bu mənada "Azərbaycan dili" (VI-VII siniflər üçün dərslik, 2003), "Müasir Azərbaycan dilinin morfologiyası. I hissə"(2000), "Müasir Azərbaycan dilinin morfologiyası. II hissə" (2003), "Azərbaycan dili: dünən, bu gün"(2004), "Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya"(2007), "Müasir Azərbaycandilinin leksikologiyası" (2008), "Müasir Azərbaycan dilinin morfologiyası (2010). "Müasir Azərbaycan dilinin sintaksisi" (2017) kitabları dərslik və dərs vəsaitləri kimi olduqca dəyərlidir. Bu kitablarda qrammatika, qrammatik quruluş, kök, şəkilçi, nitq hissələrinin təsnifatı kim Professor Buludxan Xəlilovun elmi ictimaiyyətdəki yeri unikal və əvəzsizdir.

***Fərrux RÜSTƏMOV,***
***pedaqoji elmlər doktoru,***
***professor, Əməkdar elm xadimi***

O, Müstəqil Azərbaycanımızın dilçilik, ədəbiyyatşünaslıq sahəsinin tanınmış simalarından biri kimi öz dəst-xətti, öz yaradıcılıq yolu ilə qənimət alimlərimizin birincilər sırasındadır.

***

Nurlanır, min ildə yanacaq hələ,
Camalı, kamalı, amalı – işıq.
Bir alim ömrüylə verib əl-ələ,
Bir insan ömrünə töhvəsi – işıq.

***Əziz Axundlu,***
***şair***